# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü təhsil müəssisələrində qeyd olunub

## Bakı Slavyan Universitetində




Mayın 3-5 tarixlərindəTəhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

330 yerli və xarici alimin məruzə tezislərinin qəbul olunduğu tədbir çərçivəsində plenar və bölmə iclasları olub. Konfransda 10 ölkədən 21 qonaq (Rusiya, Bolqarıstan, Türkiyə, Gürcüstan, İtaliya, ABŞ, Qazaxıstan,Moldova, İsveç, Polşa), eləcə də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikası Baş Prokurorluğu, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Məhkəmə Ekspertizası Mərkəzi, AMEA-nın elmi-tədqiqat institutları və Naxçıvan Bölməsi və digər ali məktəblərin nümayəndələri iştirak ediblər.

Mayın 3-də konfrans iştirakçıları Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil qoyublar. Sonra BSU-nun akt zalında konfransın açılışı olub. Ertəsi gün konfrans öz işini "Heydər Əliyev irsi və Azərbaycan multikulturalizm modeli", "Müasir Azərbaycanda multikultural cəmiyyət", "Azərbaycan tarixi və mədəniyyəti", "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı" bölmələri üzrə davam etdirib. Qeyd edək ki, konfransın işinə daxil edilən "Müasir Azərbaycan ulu öndər Heydər Əliyev ideyaları işığında" bölməsində respublikanın müxtəlif universitetlərini təmsil edən tələbələr, Bakı, Sumqayıt, Abşeron rayon məktəb və liseylərinin, o cümlədən qaçqın məktəblərindən olan şagirdlər iştirak ediblər. Konfrans çərçivəsində xarici qonaqların iştirakı ilə "Multikulturalizm: dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda "dəyirmi masa" keçirilib.

Sonda xarici qonaqlar Bakı şəhərinin görməli yerləri ilə tanış olublar.

**Şakir CƏFƏROV,**
*"Azərbaycan müəllimi"*

## Azərbaycan Dövlət İqtisad Universitetində



Mayın 4-də Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan "Ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitabları" mövzusunda sərgi-konfrans keçirilib.

Konfrans iştirakçıları ümummilli liderin universitetdəki büstü önünə gül dəstələri qoyaraq xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Heydər Əliyevin Milli Kitabxanaya hədiyyə etdiyi kitablardan ibarət sərgiyə baxış keçirilib.

UNEC-in rektoru, professor Ədalət Muradov ulu öndərin həyat yolunun, onun zəngin irsinin bugünkü gənclər tərəfindən dərindən öyrənilməsinin əhəmiyyətini vurğulayıb. Bildirib ki, Heydər Əliyevin ideyaları sırasında milli mədəniyyətin ayrılmaz hissəsi olan kitabxanaların inkişafı xüsusi əhəmiyyətə malikdir. Ulu öndərin fikrincə, "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov ulu öndərin Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğısından danışıb.

Tədbirdə çıxış edənlər ulu öndərin rəhbərliyi ilə həyata keçirilən mədəni quruculuq tədbirlərindən, kitabxana işinin təşkilinin prioritet əhəmiyyət kəsb edən, cəmiyyətin mədəni həyatına təsir edən bir amilə çevrilməsindən danışıblar.

Sonda ulu öndər Heydər Əliyevin 3 iyun 1995-ci ildə Milli Kitabxanadakı çıxışından hazırlanan qısa film nümayiş etdirilib.

**İctimaiyyətlə əlaqələr şöbəsi**

## Azərbaycan Texniki Universitetində



Mayın 3-də Azərbaycan Texniki Universitetində (AzTU) tələbələrin və gənc tədqiqatçıların ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan "Gənclər və elmi innovasiyalar" mövzusunda respublika elmi-texniki konfransı öz işinə başlayıb. Konfransın məqsədi müxtəlif istiqamətlər üzrə təhsil alan tələbələri müasir elmi yeniliklərlə, ulu öndərin təhsil və elm sahəsində xidmətləri ilə tanış etməkdir.

Əvvəlcə tədbir iştirakçıları universitetin Heydər Əliyev Mərkəzini ziyarət edərək ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolarla tanış olublar, foyedə ümummilli lider Heydər Əliyevin büstü önünə güllər düzüb, xatirəsini ehtiramla yad ediblər. Sonra universitet rəhbərliyi və qonaqlar ötən ay cəbhədə düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olan AzTU-nun şəhid məzunlar üçün yaradılan güşəyə baxıblar.

Tədbirdə AzTU-nun rektoru, professor Havar Məmmədov Azərbaycanda gənclər siyasətinin uğurla həyata keçirilməsindən, gənclərin inkişafına göstərilən dövlət qayğısından danışıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinin təhsilinə, hərtərəfli inkişafına diqqət və qayğısını xüsusi vurğulayan rektor ulu öndərin "Dövlət gənclər siyasəti haqqında" 1999-cu il 29 iyul tarixli Fərmanının əhəmiyyətindən söz açıb.

Vurğulayıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Konfransın plenar iclasında müxtəlif mövzularda məruzələr dinlənilib.

Konfrans işini bölmələrdə davam etdirib.

**Nicat ABDULLAYEV,**
*Mətbuat xidmətinin rəhbəri*

## Naxçıvan Dövlət Universitetində



Naxçıvan Dövlət Universitetinin təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində "Heydər Əliyev və Azərbaycanda kənd təsərrüfatının inkişafı" mövzusunda elmi konfrans keçirilib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov konfransdakı giriş sözündə dünyaşöhrətli siyasi xadim, böyük tarixi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətinin, keçdiyi şərəfli mübarizə yolunun, təməlini qoyduğu azərbaycançılıq ideologiyasının böyük siyasi məktəb olduğunu vurğulayıb. Rektor qeyd edib ki, ümummilli liderin digər sahələrdə olduğu kimi, ölkədə kənd təsərrüfatının tərəqqisi, əkinəyararlı sahələrin, fermer təsərrüfatının formalaşması və inkişafı, məhsuldarlığın artırılması, digər mühüm aqrar islahatların həyata keçirilməsi istiqamətində də mühüm xidmətləri var.

Konfransda botanika kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Musa Piriyevin "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının aqrar sahəsindəki islahatlarda görkəmli dövlət xadimi Heydər Əliyevin rolu", zoologiya kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Həbib Hüseynovun "Naxçıvan Muxtar Respublikasında ekoloji problemlərin həllində Heydər Əliyevin rolu", baytarlıq təbabəti kafedrasının müəllimi Feyzi İbadovun "Azərbaycanın aqrar sahədə əldə etdiyi nailiyyətlər Heydər Əliyev siyasətinin nəticəsidir" mövzusunda məruzələri dinlənilib.

Konfransda ümummilli liderin ictimai-siyasi fəaliyyətindən bəhs edən film nümayiş olunub.

**Mehriban SULTAN,**
*Naxçıvan Dövlət Universitetinin Mətbuat şöbəsinin müdiri*

## Təhsil Problemləri İnstitutunda



Mayın 2-də Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda (ARTPİ) ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar seminar keçirildi.

Seminarı giriş sözü ilə açan ARTPİ-nin direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Faiq Şahbazlı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev şəxsiyyəti haqqında çıxış etdi. O qeyd etdi ki, biz xoşbəxt insanlarıq ki, məhz belə bir tarixi şəxsiyyətlə eyni dövrdə yaşamış, onun bütün fəaliyyətini əyani olaraq müşahidə etmiş, həyat fəaliyyətini öz yaşam tərzimizdə canlandırmış və bunun müsbət nəticələrini görmüşük. Tarix Heydər Əliyev kimi fenomeni Azərbaycan xalqına gələcəyimizin xoşbəxt təminatçısı kimi bəxş etmişdir. Heydər Əliyev müasir, qüdrətli Azərbaycanımızın qurucusu və memarıdır. O böyük və uzaqgörən dahinin düşüncələrindəki Azərbaycanın qüdrətinə hər bir vətəndaşımızda inam yaratdı. Dünyəvi, demokratik, açıq bir cəmiyyət qurmaqla Azərbaycanı dünyaya inteqrasiya etdirdi.

Sonra ARTPİ-nin Təhsilin idarə edilməsi və iqtisadiyyatı şöbəsinin müdiri, professor Piralı Əliyevin məruzəsi dinlənildi.

Tədbirin maraqlı məqamlarından biri də uzun illər ARTPİ-də çalışmış, Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayevin ulu öndər Heydər Əliyevin təhsil sahəsində fəaliyyətini əks etdirən "Nəsillərə örnək insan" kitabının tədbir iştirakçılarına təqdim edilməsi oldu. Professor Ə.Ağayev kitabın ərsəyə gəlməsi zərurətindən və onun məzmunundan danışdı.

Daha sonra ARTPİ-nin direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru Ənvər Abbasov çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsilində başladığı və bu gün də uğurla həyata keçirilən təhsil islahatının önəmli məqamlarına toxundu.

Tədbirdə institut əməkdaşlarından Rəsul Əsgərov, professor İntiqam Cəbrayılov, professor Vidadi Xəlilov, Fərid Süleymanlı və başqaları çıxış edərək Heydər Əliyev fenomeni haqqında ən ülvi duyğularla zənginləşmiş fikirlərini iştirakçılara çatdırdılar.

Dahi şəxsiyyət Heydər Əliyev ənənələrinə sadiqlik nümunəsi olaraq seminarın yekununda ARTPİ-nin iki gənc əməkdaşı Nizami Məmmədovun və Lalə İmanovanın ərizələri əsasında Yeni Azərbaycan Partiyasının sıralarına qəbul olunmasına qərar verildi.

**Təhsil Problemləri İnstitutu**

## Azərbaycan Texnologiya Universitetində



Azərbaycan Texnologiya Universitetində (ATU) ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə "Bolonya təhsil prosesində universitet-sənaye əlaqələrinin müasir problemləri" adlı beynəlxalq simpozium keçirilib. Simpoziuma 7 ölkədən 165 nəfər elm xadimi, ictimaiyyət nümayəndələri və rəsmi qonaqlar qatılıb.

Simpozium iştirakçılarını salamlayan ATU-nun rektoru, professor Akif Süleymanov əvvəlcə ümummilli lider Heydər Əliyevin ölkəmizin müstəqilliyinin bərqərar olunması və iqtisadi inkişafı sahəsindəki xidmətlərindən, Azərbaycan elminin təşəkkülü üçün gördüyü misilsiz işlərdən danışıb.

Beynəlxalq simpoziumun mövzusunun təsadüfi seçilmədiyini deyən rektor onun hazırda universitetdə Təhsil Nazirliyinin pilot layihəsi kimi yerinə yetirilən Müştəriyə Yönəlmə Proqramı ilə əlaqədar olduğunu söyləyib. Bildirib ki, yerli mühəndis-mexanik və mühəndis-texnoloq kadrları ilə təminatının əsasını ölkənin bütün sənaye sahələri ilə birbaşa əlaqələr təşkil etməlidir. Bu istiqamətdə xeyli işlər görülüb, universitetin profilinə uyğun olaraq bir çox sənaye müəssisələri ilə əlaqələr yaradılıb.

Daha sonra çıxış edən akademik Ziyad Səmədzadə, Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Natiq İbrahimov, professorlar Hamlet İsaxanlı, Sema Erentürk, Nodar Papukaşvili və digərləri beynəlxalq simpoziumun mövzusunun əhəmiyyətinə toxunublar. Natiqlər bildiriblər ki, müasir dövrdə keyfiyyətli kadr hazırlanması ancaq ali təhsil və istehsalat müəssisələrinin inteqrasiyası və birgə fəaliyyəti nəticəsində mümkün ola bilər. Bu istiqamətdə meydana çıxan problemlərin həlli üçün elm xadimləri əzmlə çalışmalıdır.

Beynəlxalq simpozium işini müxtəlif sənaye sahələrinə həsr olunan 8 bölmədə davam etdirib.

**Mətbuat xidməti**